# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 08 (2015) 27 fevral 2026-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiymәti : 50 qәpik


## Xalqına və dövlətinə sədaqətlə xidmət etmiş - KAZIMAĞA KƏRİMOV

Azərbaycan torpağı hər zaman igid oğul və qızlar yetişdirib. Vətənin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanlarımız xalqımızın qürur mənbəyidir. Tarixdə elə igid oğullar var ki, onlar həm qələm sahibi, həm də Vətən uğrunda canından keçən fədakar insanlardır. Azərbaycanın müstəqilliyi, torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə minlərlə insanımız iştirak etmiş və şəhidlik zirvəsinə qalxmışdır. Onlardan 214 nəfəri Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli bir ada layiq görülmüşdür. Bu gün ölkəmizin qorunmasında, saxlanılmasında, müstəqil dövlət kimi yaşamasında və inkişaf etməsində Milli Qəhrəmanlarımızın böyük rolu olmuşdur. Məhz bu səbəbdən də hər bir azərbaycanlı onları öyrənməli, tanımalı, sevməli, onların xidmətlərini daim xatırlamalı, qiymətləndirməli, tanıtdırmalı, bugünkü və gələcək nəsillərimizə örnək olan ömürlərindən dərs almalı, onlara minnətdar olmalıdır.

“Vətən yolunda şəhid olanlar ölmürlər, xalqın qəlbində, ürəyində əbədi yaşayırlar... Biz onların qəhrəmanlığı, şəhidliyi ilə fəxr edirik. Bu, bizim millətimizin iftixarıdır”

*Heydər Əliyev*



Xalqı yaşatmaq üçün canından keçən igid oğullar heç zaman unudulmur. Nəsillər onları yaşadır, sənətkarlar bu ölməz övladların mənəvi abidələrini ucaldırlar. Milli Qəhrəman, jurnalist Kazımağa Kərimov məhz belə şəxsiyyətlərdən biridir. Kərimov Kazımağa Möhsün oğlu 1951-ci il sentyabrın 1-də Qubadlı rayonunun Sarıyataq kəndində, ziyalı ailəsində anadan olub. Kazımağa ailənin səkkiz oğul övladından biri idi. Atası Möhsün müəllimin və anası Səmər xanımın ən ümdə arzusu övladlarını düzgün tərbiyələndirmək, onları xalqına-millətinə layiqli övladlar olaraq böyütmək olub. Çətin də olsa Möhsün müəllim və Səmər xanım övladlarının təhsili ilə bağlı arzularına çatıb, onların hər birinin istədikləri peşənin arxasınca getməsi üçün lazımi şərait yaradıblar. Ailənin yeddinci övladı olan Kazımağa digər qardaşları kimi orta məktəbi doğulub boya-başa çatdığı Qubadlıda bitrirdikdən sonra ali təhsil almaq qərarına gəlir və bu arzu onu Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə gətirir. Kazımağa beş il müddətində təhsil aldığı universitetin bütün ictimai işlərində fəal iştirak edir və dövri mətbuatda öz qələmini tez-tez sınayırdı. Sevərək arxasınca getdiyi peşəsində püxtələşsin, yazılarında oxşarlıq olmasın, quru sözçülükdən uzaq olsun deyə çalışan Kazımağanın həmin zamanlar ağlına belə gəlməzdi ki, nə vaxtsa qələmini silahla əvəz edəcək. Çünki Kazımağa son dərəcə peşəsinə bağlı bir insan idi. Görünür bu da Kazımağa taleyinə yazılmış bir qismət, bir alın yazısı imiş.

Kazımağa xarakter etibarilə də fərqli bir insan idi. İlk baxışdan nə qədər zəhmli görünsə də, daxilən çox səmimi, mehriban və heç zaman heç kimsədən köməyini əsirgəməyən bir insan idi. İkiüzlülükdən, riyakarlıqdan çox-çox uzaq olan bu insan ən xırda haqsızlığa, ədalətsizliyə belə dözə bilmir və həmin an öz haqq səsini ucaldırdı. Onu həmyaşıdlarından fərqləndirən əsas xüsusiyyəti isə son dərəcə uzaqgörən olması, ətrafda cərəyan edən hadisələri özünəməxsus şəkildə anailiz edərək düzgün qərarlar çıxarması idi. Kazımağanın bu xarakteri, tələbəlik illərində onun müəllimi olmuş Bakı Dövlət Universitetinin professoru, əməkdar elm xadimi, yazıçı-publisist Qulu Xəlilovun onunla bağlı söylədiyi və qələmə alıdığı xatirələrində də öz əksini tapıb. Yazıçı Kazımağada olan bu xarakteri onun adında olan “ağa” sözü ilə uyğunlaşdırmış və bu sözün sanki onun xarakterinə yansıdığını dəfələrlə öz fikirlərində vurğulamışdır.

Universiteti bitirdikdən sonra Kazımağa peşəsinin arxasınca gedərək bir müddət "Azərbaycan məktəbi" jurnalında, sonra isə "Azərbaycan müəllimi" qəzetində çalışıb.

1988-ci ildə doğma vətəninin üzərini qara buludlar aldığı bir zamanda, heç vaxt haqsızlıqla, ədalətsizliklə barışmayan Kazımağa da özünün bir Azərbaycan övladı olaraq bu torpaqların müdafiəsinə qalxmağa borclu olduğunu hiss etdi. Evini, ailəsini və hər bir şeydən uca tutduğu peşəsini arxada qoyaraq cəbhə bölgəsinə yollandı. Yalnız Kazımağanın döyüş yolu doğulub boya-başa çatdığı doğma Qubadlıdan deyil, Goranboydan keçdi. Goranboy rayonunda yaradılan könüllü özünümüdafiə batalyonlarından birinə komandir müavini təyin olunan Kazımağa baş leytenant rütbəsi altında doğma torpaqlarımızın müdafiəsinə qalxdı.

Hərbi geyim onun boy-buxununa nə qədər yaraşsa da xasiyyətcə hərbidən çox uzaq bir insan idi. Nəinki onu tanıyanların, hec onun özünün də təsəvvürünə gəlməzdi ki, ömründə qarışqa tapdalamayan bir insan nə vaxtsa qələmini silahla əvəz edəcək, nişan alıb adam öldürəcək. Əgər erməni quldurlarını adam adlandırmaq mümkünsə!.

Ancaq onu da qeyd etmək lazımdır ki, Kazımağada Vətənə, torpağa olan məhəbbət təsadüfi deyildi. Çünki o, hələ XIX əsrin ikinci yarısında indiki Sankt-Peterburq şəhərində Ali Hərbi məktəb bitirmiş və 1918-1920-ci illərdə Ermənistan-Azərbaycan müharibəsi zamanı doğma torpaqlarının müdafiəsinə qalxmış Zəngəzur Mahalının tanınmış bəylərindən olan İsmayıl bəyin nəvəsidir. Kazımağa döyüşə atıldığı ilk gündən etibarən bir çox hərbi əməliyyatlarda iştirak edib. Goranboy rayonunun Gülüstan, Qaraçinar, Manas, Şəfəq, Tap Qaraqoyunlu kəndləri uğrunda gedən döyüşlərə komandanlıq edən komandir üçün bu döyüşlər sanki bir sınaq olsa da, bu sınaqdan alnıaçıq çıxıb.

Bu uğurlarla kifayətlənməyən Kazımağa komandanlıq etdiyi batalyonu yeni bir əməliyyata hazırlayır. Bu əməliyyat planı düşmən tapdağı altında olan keçmiş Şamuyankənd rayonunun azad olunması olur. Yalnız bu əməliyyat Kazımağanın iştirak etdiyi sonuncu əməliyyat olur. 1992-ci ilin 12-13 iyun tarixlərində Şamuyankənd rayonunun azad olunması uğrunda həyata keçirilən əməliyyatda komandir Kazımağa Kərimov ağır yaralanır. Komandirin ağır yaralanmasını görən əsgər və zabitlərdə ruh düşgünlüyünün yarandığını hiss edən Kazımağa yenidən, döyüşü davam etdirmək əmri verir. Elə həmin tarix Şamuyankənd rayonunun azad olunduğu gün kimi Azərbaycan tarixinə həkk olur. Aldığı yaranın ağır olmasına baxmayaraq, əməliyyatın sonunadək iştirak edən Kazımağa döyüş bitdikdən sonra Bakı şəhərində yerləşən Hərbi Hospitala çatdırılır. Ayağından yaralanan Kazımağa doğmalarının onun ayağını itirəcəyindən qorxduqlarını hiss edərək, həmin an belə özünü itirmədən əllərini havaya qaldıraraq yaxşı ki, yazan əlim var deyir. Lakin Kazımağanın bir ayağını itirəcəyi qorxusu ilə yaşayan insanların heç ağlına belə gəlməzd ki, onu bütünlüklə itirəcəklər. Çünki o insanların heç biri bu fikri bir anlıq da olsa belə qəbul edə bilmir, “dağ boyda” bir insanın ayağından aldığı yara ilə dünyasını dəyişəcəyini güman belə etmirdilər. Ancaq amansız ölüm Kazımağanı sevənlərə onsuz neçə yaşayacaqlarını da öyrətdi. Kazımağa 15 iyun 1992-ci ildə, ömrünün 41-ci baharında gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalır.

Son dəfə Bakı şəhərində tələbə yoldaşları və eyni zamanda qələm dostları ilə görüşən Kazımağa onlara yaxın zamanlarda Qarabağ müharibəsində dönüşün təməlinin məhz Goranboy cəbhəsində qoyulacağını söyləyir və inşallah düşmən tapdağı altında olan bütün torpaqlarımız azad olduqdan sonra qələmi yenə əlinə alaraq onlarla çiyin-çiyinə çalışacağına dair söz verir. Yoldaşları ilə sağollaşan Kazımağa növbəti dəfə Bakıya iyun ayının 16-da gələcəyini söyləyir və görüş yerini “Şəhidlər Xiyabanı” deyə verir. Həmin tarixdə Kazımağa ilə görüşmək üçün “Şəhidlər Xiyabanı”na gələn yoldaşları gözləmədikləri bir mənzərə ilə rastlaşırlar. Çünki gələn Kazımağanın özü deyil, cansız bədəni idi. Qəhrəmanımız bu dəfə onu sevənlərin çiynində son mənzilə yola salınırdı.

Kazımağa Kərimova ölümündən bir həftə sonra, Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli, 6 saylı fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilir. Kazımağa ilk jurnalist idi ki, belə bir fəxri ada layiq görülürdü. Kazımağa Kərimovun adının əbədiləşdirilməsi məqsədilə dövlətimiz tərəfindən onun adına Bakı şəhərində küçə verilir. Eyni zamanda doğulub boya-başa çatdığı doğma Qubadlının Balasoltanlı kənd tam orta məktəbi və döyüş yolunun keçdiyi Goranboy rayonunun Qızılhacılı kəndində yerləşən mədəniyyət evi onun adını daşıyır. Həmçinin Goranboy rayonunda şəhid Milli Qəhrəmanın büstü də qoyulub.

Torpağı Vətənə çevirən, onun adını al qanı ilə günəşli üfüqlərə yazan - onun övladlarıdır. Vətən uğrunda canından keçən şəhidlərimiz və qazilərimiz Azərbaycanın müstəqilliyinin canlı simvollarıdır. Onların fədakarlığı sayəsində üçrəngli bayrağımız azad torpaqlarımızda dalğalanır. Azərbaycan Ordusunun növbəti uğuru 27 sentyabr 2020-ci il də tamamlandı. Bu tarix xalqımızın yaddaşından, hərb tariximizdən silinməyəcək. Məhz həmin gün 32 ildən bəri davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində yeni mərhələnin başlanğıcı oldu. İşğalçılıq və təcavüzkarlıq siyasətini davam etdirən, terrorçuluğu dövlət siyasətinə çevirən erməni silahlı birləşmələri növbəti dəfə atəşkəs rejimini pozdu. Düşmən bu dəfə Azərbaycan Ordusunun daha kəskin, daha sərt cavabı ilə qarşılaşdı. Dözüm göstərən Azərbaycan xalqı, Azərbaycan Ordusu bir andaca səfərbər və tək yumruq oldu, düşmənin cavabının yalnız savaş olduğuna qərar verdi. Beləliklə, Qarabağ münaqişəsinin həllində hərb variantına keçildi, illərdir Qarabağa, işğal olunmuş torpaqlara qayıtmaq eşqi, həvəsi ilə alışıb-yanan Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu Vətən müharibəsinə başladı. Bəli, məhz Vətən müharibəsinə. Adına əks-hücum əməliyyatı desək də, bu, artıq Vətən müharibəsidir! 1994-ci il may ayının atəşkəsindən sonra başlayan, bizi zəfərlərə, səsləyən və aparan ikinci Vətən müharibəsi. Azərbaycan Ordusu dövlət başçısının rəhbərliyi ilə Vətən müharibəsində düşmənin işğalçı qüvvələrini qısa müddətdə darmadağın etdi və ölkəmizin ərazi bütövlüyünün bərpasına nail oldu. Vətən müharibəsi xalqımızı illərlə həsrətində olduğu doğma Qarabağa qovuşdurdu.

Tarixi Zəfərimiz sübut etdi və göstərdi ki, Azərbaycan güclü, sülhsevər, inkişaf edən dövlətdir. Xalqımız mübariz, qəhrəman, əyilməz, dostunu, düşmənini yaxşı tanıyan, torpağına, yurduna sədaqətli xalqdır. Ellərimiz, obalarımız dağılmağa, viran edilməyə, xarabazarlıqlara çevrilməyə yox, abadlaşdırılmağa, çiçəklənməyə, insanlara həyat, xoşbəxtlik, səadət bəxş etməyə layiqdir.


*Gülşəndə MAMEDOVA*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı elmi-işçisi*